| | | | |
|---|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | AZLL320, Azərbaycan dilində əməli yazı, 3 kredit, 6 AKTS. | |
| | **Departament** | Dillər və ədəbiyyatlar | |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavriat | |
| | **Tədris semestri** | 2025/2026-cı tədris ilinin yaz semestri | |
| | **Fənni tədris edən müəllim (lər)** | PHD Əsmər Kərimova | |
| | **E-mail:** | esmer.kerimova.88@bk.ru | |
| | **Mühazirə otağı/Cədvəl** | 406 | |
| | **Konsultasiya vaxtı** | Tələbələrlə razılaşdırılmış vaxtda | |
| **Prerekvizitlər** | Əməli yazı (başlanğıc) | | |
| **Tədris dili** | Azərbaycan dili | | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | *Dərsliklər:*<br>1. Buludxan Xəlilov, Azərbaycan dilində işgüzar və akademik kommunikasiya, 2021, 467s<br>2. Nadir Məmmədli, Azərbaycan dilində işgüzar və akademik kommunikasiya, 2021, 517 s.<br>3. Könül Dənziyeva. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Dərslik. Bakı, Elm və təhsil, 2025<br>*Əlavə ədəbiyyatlar:*<br>1. Ş.M.Ağakişiyeva. Ədəbi dil normaları və üslubları.2008, 136 s.<br>2. Cəfərov Vəliyulla. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Dərs vəsaiti. Bakı, 2021.<br><br>*İnternet resusları:*<br>1. www.scrib.com// plagiat və antiplagiat; biblioqrafiya qaydaları<br>2. www.vosviewer.com //mətnin intensivlik xəritəsinin qurulması<br>3. www.mendeley.com // mətnə istinad<br>4. www.aak.gov.az // akademik yazı qaydaları v ölkə üzrə qəbul edilən nəşrlər. | | |
| **Tədris metodları** | Video tapşırıq, yarış, ekuskursiya, təlim, görüş | + | |
| | Qruplarla iş | + | |
| | Sual-cavab | + | |
| | Obrazlı oyunlar | + | |
| | Kartlarla iş | + | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz(%)** |
| | Davamiyyət | | 5 |
| | Aktivlik | | 5 |
| | Quiz 1 | | 5 |
| | Quiz 2 | | 5 |
| | **Aralıq imtahanı** | 8-ci həftə | **30** |

| | | | |
|---|---|---|---|
| | Layihə (video tapşırıq, görüş, təcrübə) | | 10 |
| | **Final imtahanı** | | **40** |
| | **Yekun** | | **100** |
| **Kursun təsviri** | Fənnin tədrisi prosesində dil və dilin funksiyaları barədə məlumat verilir. Dil və nitqin oxşar və fərqli cəhətləri öyrənilir. Bununla yanaşı yazı və növləri də öyrədilir. Qloballaşan dünyanın bir parçası olan Azərbaycanın müxtəlif sahələr üzrə inkişafı dilin də zənginləşməsi və müəyyən yaruslarda dəyişiklər edilməsi ilə nəticələnmişdir. Azərbaycan dilinin üslubları və rəsmi-işgüzar sənədləşmə prinsipləri və növləri bu fəndə tədris edilir. Ayrı-ayrılıqda əməli yazı nümunələri tələbələrə mənimsədilir. | | |
| **Kursun məqsədləri** | Fənnin hədəfləri "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"ndan irəli gələn tələblərə uyğun olaraq tələbələrə Azərbaycan dilində əməli yazı nümunələri üzrə materialların aşılanması və mövcud istiqaqmət üzrə tələbələrə bilik və bacarıqların formalaşdırılması fənnin hədəflərini təşkil edir. Müvafiq hədəf müqabilində Azərbaycan dilində artıq standart forma hesab edilən ərizə, arayış, tərcümeyi -hal, akt, protokol, CV, məktublar, vəkalətnamə, izahat, bildiriş, xasiyyətnamə və s. kimi əməli yazı nümunələrin tələbələr tərəfindən müstəqil şəkildə tərtib etməsini təmin etməkdir. | | |
| **Tədrisin (öyrənmənin) nəticələri** | Kursu tamamlayan tələbələr:<br>• Əməli yazı növlərini bir-birindən fərqləndirə biləcəklər. Eyni zamanda onları iş və həyat fəaliyyətində tətbiq edə biləcəklər.<br>• Ədəbi dil normaları və üslubları öyrəndikdən sonra sərbəst nümunələr hazırlaya biləcəklər.<br>• Yazıda punktuasiya qaydalarına əməl edə biləcəklər.<br>• Sənəd dili ilə tanış ola biləcək və onları hazırlaya biləcəklər. Sahələr üzrə tətbiq edəcək.<br>• Akademik yazı növləri öyrənəcəklər.<br>• Bununla yanaşı, yazıya verilən tələblər barədə informasiyalar əldə edərək tətbiq etmək bacarıqlarına yiyələnəcəklər.<br>• İndeksli jurnallara qeydiyyat və məqalə çapı ilə bağlı təcrübələr əldə edəcəklər.<br>• Plagiat və antiplagiat proqramları ilə yaxından tanış olaraq praktik işləyəcəklər. Məqalənin xəritəsini qurmaq və beynəlxalq nüfuzlu jurnallarla əlaqə yaratmaq vərdişləri qazanacaqlar.<br>• Elektron işgüzar rabitə qurmaq və layihə hazırlamağın nəzəri-praktik əhəmiyyətini müəyyənləşdirəcək.<br>• Sənədləri tərtib edərkən vasitələrdən istifadə edə biləcək. | | |

**Quiz 1.** test tapşırıqları qapalı və açıq tipli suallar əsasında qurulacaq. Birinci quiz aralıq imtahanına qədər, digəri isə aralıq imtahanından sonra keçiriləcək. Hər biri **5 balla** qiymətləndiriləcək.

**Quiz 2.** Situasiya tipli məsələnin həllində öyrənilən əməli yazının tətbiqi. İş 5 meyarla qiymətləndirləcək və yekun **bal 5 -dir**.

**Layihə (video tapşırıq, görüş, təcrübə)** Keçirilən mövzuların əsasında, tələbələrlə yaradıcı layihə tərtib etmək nəzərdə tutulur. Layihə əsaslıdır. Burada komanda işi formasında tərtib edilir. Praktik və nəticəyönümlü mövzular işlənir. Qlobal xarakter daşıyan və sosial statuslu fəaliyyət planlaşdırılır. Mövzuların və metodların müxtəlifdir. Qrupun hazırlıq səviyyəsinə uyğun olaraq növlər tətbiq edilə bilər. ***10 balla*** qiymətləndirilir.

**Məqsəd:**

Tələbələrin **kollektiv fəaliyyət**, **layihə planlaşdırma və idarəetmə**, **yaradıcı təqdimat** və **kommunikasiya bacarıqlarını** inkişaf etdirmək.

Tapşırığın tələbləri:

- **Qrup işi zamanı əməkdaşlıq** əlaqələrini düzgün qurmaq
- Mövzunu komandada **iş bölgüsü** əsasında işləmək
- Yazılı və şifahi **nitq mədəniyyətinə** riayət etmək
- **Tənqidi yanaşma** və **yaradıcılıq qabiliyyətini** nümayiş etdirmək

**Davamiyyət və aktivlik**: Bal verilən zaman tələbənin dərsdə ardıcıl iştirakı və dərsdə özünü qaydalara uyğun aparması nəzərə alınacaqdır. Üzrsüz buraxılan hər dərs üçün 0,5 bal çıxılacaq.

**İmtahan haqqında:**

**Aralıq imtahanı** – 30 bal (imtahanda tələbələrin biliyi həm nəzəri suallar, həm test, həm də keçilən mövzulara aid tapşırıq və çalışmalarla yoxlanılacaq)

**Final imtahanı** – 40 bal (imtahanda tələbələrin biliyi həm nəzəri suallar, həm test, həm də keçilən mövzulara aid tapşırıq və çalışmalarla yoxlanılanaq)

İmtahana hazırlaşarkən dərslərdə götürülmüş qeydləri öyrənməklə yanaşı, dərsin iş planında göstərilmiş ədəbiyyat və internet resurslarına müraciət etmək vacibdir.

İstifadə ediləcək elmi vəsaitlərin bir qismi tərəfimizdən təmin ediləcəkdir.

**Cədvəl**

| № | Tarix | Fənnin mövzuları | Dərslik və tapşırıqlar |
|---|---|---|---|
| 1 | | Yazılı işgüzar kommunikasiya. Məqsədi, üstün və zəif tərəfləri. Sənəd anlayışı. Sənədlərin tərtib edilməsində qoyulan normalar. | B.Xəlilov. səh.162<br>Tapşırıq: sorğu-sual<br>B.Xəlilov. səh.163-164<br>Tapşırıq: komanda işi |
| 2 | | Sənədin tərtib etikası. | B.Xəlilov. səh.166<br>Tapşırıq: rollu oyun. |
| 3 | | Sənədlərin növləri və tipologiyası | B.Xəlilov. səh.176<br>Tapşırıq: Kiçik həcmli araşdırma aparmaq. Fərqli dövlətlərlə mövzunun müqayisini aparmaq. |

| | | | |
|---|---|---|---|
| 4 | | Elektron işgüzar rabitə. Poçt yazışmaları. | B.Xəlilov. səh.218<br>Tapşırıq: situasiya qurmaq və müxtəlif brauzerlərdən yazı nümunələri tərtib etmək. |
| 5 | | E-poçt quruluşu. Elektron poçt nümunəsi | B.Xəlilov. səh.220<br>Tapşırıq: situasiya qurmaq |
| 6 | | Elektron rabitə. Elektron dizayn | B.Xəlilov. səh.221<br>Tapşırıq: situasiya qurmaq və müxtəlif brauzerlərdən yazı nümunələri tərtib etmək |
| 7 | | Elektron imza. E-poçt ölçüsü | B.Xəlilov. səh.224<br>Tapşırıq: video tapşırıq |
| 8 | | **Aralıq imtahanı** | |
| 9 | | Layihə hazırlığı. Layihə anlayışı<br>Layihənin tərtib prinsipləri | B.Xəlilov. səh.145<br>Tapşırıq: Sərbəst iş |
| 10 | | Təqdimat. Təqdimat nitqinin hazırlanma mərhələləri. Təqdimatın planlaşdırılması. | B.Xəlilov. səh.148<br>Tapşırıq: Müxtəlif qlobal aktual problemlərə dair təqdimat hazırlanması |
| 11 | | Təqdimata diqqəti artırmaq üçün istifadə olunan üsullar<br>Vizual və şifahi təqdimat üsulları | B.Xəlilov. səh.149<br>Tapşırıq: Dünya dillərində və Azərbaycanda tətbiq edilən proqramların işlənmə tezliyi. Şifahi təqdimatın fərqli cəhətləri |
| 12 | | Kommunikasiya anlayışı və şifahi akademik kommunikasiya<br>Şifahi akademik kommunikasiya<br>Şifahi akademik janrlar<br>Akademik çıxış bacarıqları | B.Xəlilov. səh.205<br>Kitabxanada iş |
| 13 | | Yazılı akademik kommunikasiya və akademik yazının strukturu<br>Yazılı akademik kommunikasiya anlayışı<br>Akademik yazının xüsusiyyətləri<br>Akademik mətnin strukturu<br>Mətnin tərtib qaydaları | B.Xəlilov. səh.207-209<br>Mətnlər tərtib etmək.<br>Mövcud əsərin sonluğunu dəyişmək. |
| 14 | | Akademik yazının növləri. Akademik Yazının Quruluşu və Planlaşdırılması | B.Xəlilov. səh.394<br>Praktik iş |
| 15 | | Abstrakt və Xülasənin yazı qaydaları | B.Xəlilov. səh.398<br>Fərqli mövzulara dair nümunələr tərib etmək |
| 16 | | Akademik Yazının Əsas hissələri<br>Giriş və tezis cümlələrinin tərtib qaydaları | B.Xəlilov. səh.400<br>Nümunələr üzərində iş. Doöru tərtib edilməyən nümunələrin redaktəsi<br>B.Xəlilov. səh.402 |

| | | | |
|---|---|---|---|
| | | | Praktik iş |
| 17 | | Nəticənin ənənəvi “elementləri”<br>Arqumentin yazıda göstərilmə qaydası | B.Xəlilov. səh.412<br>Fərqli elm sahələrinə aid akademik işlərin nəticə hissəsi ilə tanış olmaq |
| 18 | | İstinad etmə və sitat gətirmə<br>Mendeley proqramının tətbiqi. | B.Xəlilov. səh.413<br>Google Research -dəki məqalələrin istinad formaları ilə tanış olmaq<br>Word proqramına əlavə etmək |
| 19 | | Akademik yazı janrları (dissertasiya, monoqrafiya, diplom işi, kurs işi, referat, avtoreferat, elmi məqalə və s.) | B.Xəlilov. səh.442<br>Əyani tanışlıq |
| 20 | | Elmi məqalənin strukturu | Məqalənin mövzusu və planını qurmaq |
| 21 | | Essenin xüsusiyyətləri və növləri | Fərqli mövzularda essenin üç növünə aid nümunə yazmaq |
| 22 | | Akademik dürüstlük: istinad, biblioqrafiya və plagiat. Biblioqrafik siyahının tərtibi | www.scribd.com<br>Praktik iş. |
| 23 | | AAK -ın saytı və sahələr üzrə mövcud qaydalar. SCOPS və Veb of Science haqda məlumatlar. | www.aak.gov.az<br>Praktik iş. |
| 24 | | Məqalənin intensivliyi. VOS WIER proqramı | https://www.vosviewer.com/ |
| 25 | | Plagiat anlayışı və növləri<br>Akademik dürüstlük prinsipləri | www.scribd.com<br>Praktik iş. |
| 26 | | Antiplagiat proqramları | www.scribd.com<br>Praktik iş. |
| | | **Final imtahanı** | |